Salam, əziz dost

Mən Gohar, gələcəkdə həkim olacağam. Mən dünyanı sevgi ilə dolu görmək istəyirəm.

Məktubu yazaraq eyni zamanda təsəvvür edirəm ki, illər sonra bəlkə də çay süfrəsi ətrafında görüşüb təbəssümlə yada salacağıq ki, biz necə tanış olduq, necə sülh göyərçinləri olduq.

Bütün bunları görmək və hiss etmək üçün hər şeyi bir qırağa qoyub əlimə qələm –kağız alıb qalan problemləri ilə gündəlik düşüncələrimi unutmuşam.

Biz bir–birimizi tanımırıq, lakin bir şey aydındır ki, ikimiz də eyni dünyada yaşayırıq. İkimiz üçün də günəş birdir, səma, ay, ulduzlar eynidir. İkimiz də ağıllı insanıq, ürəyimiz, canımız var, sevməyi bilirik, bizim gözlərimiz və qulaqlarımız yalnız sülh görmək, sülh haqqında eşitmək istəyir.

Hələ beşikdəykən mən azadlıq mübarizəsi aparırdım, qollarımız bağlardan qurtarmaq istəyirdim.

Bilirəm, hamımız azadlıq istəyirik, lakin biz sülhü qoruyub–saxlamaq barədə də unutmamalıyıq.

Əsrlərcə ötürülən ədavət milliyonlarca həyat itkisinə səbəb olmuşdur.

Bunun nəticəsində bu dünyada bizim ətrafımızda sevgi azalıb.

Artıq məqam yetişib, mənim və sənin kimi insanlar yalnız sülhün yaşadığı o qeyb olmuş röyanı tapmalıdırlar.

Tapacaqsan? Mənim özüm türk və azərbaycanlı dostlarım var, və istəyirəm əmin olasan ki, mən nə onlara nə də sənə qarşı düşmənçilik hiss eləmirəm. Arzu edirəm ki, bir gün sən də digər millətlərdən olan insanlar kimi Ermənistana, mənim evimə düşmən kimi yox qonşu ölkənin sakini kimi qonaq gələsən və elə burada mədəniyyətimizlə, ənənələrimizlə, tariximizlə tanış olasan.

Bil ki, bütün bunlar səmimidir, nəinki demək naminə deyilmiş sözlər.

Mənə etibar elə, ver mənə əlini, keçmişin bağlarından xilas olub sevgi və həmrəyliklə dolu bir gələcək qura biləcək nəsil biz olaq.

Öz içindəki nifrətə nəhayət qalib gələn nəsil biz olaq ki, sülh yolunda heç bir maneəyə rast gəlməyək.

Bəs sənin hansı arzuların var, sən sülhü necə təsəvvür edirsən? Şadam ki , belə bir fürsət oldu və ürəyimdə olanları sənə ötürə bildim. Ümidvaram ki, sənin məktubunda də səmimilik hökm edəcək.

Məktubumu oxuduğuna görə təşəkkür edirəm, dostum. Məktubunu səbrsizliklə gözləyən qıvırcıq,
Gohar